### 18 Aprel Tarixi abidələrin mühafizəsi günüdür

# Qayğı və mühafizə əsasdır

Xalqımızın tarixi kimi onun mədəniyyəti də qədimdir, bunu Azərbaycan ərazisindəki qədim abidələr bir daha sübut edir. Dövrümüzə qədər gəlib çatmış dünya şöhrətli, əzəmətli tarixi Azıx mağarası, Qobustan qayaları , Şəki xanlarının sarayı, Şirvanşahlar sarayı, qədim Qəbələ qalası, Qız qalası və s. kimi abidələrimiz mədəniyyətimizin qədimliyini, zənginliyini, təkrarsızlığını təsdiqləyir.

Respublikamızın ərazisində 1990-cı illərdən baş vermiş müharibə hər sahəyə ciddi ziyan vurmuşdur. Bu müharibədə nəinki minlərlə günahsız insanların qanı axıdıldı, qadınlar, qocalar, uşaqlar öldürüldü, girov götürüldü, bir milyondan artıq Azərbaycanlılar doğma yurd-yuvalarından ayrıldı, eyni zamanda milli mədəniyyətimizin beşiyi olan Qarabağda və digər ərazilərdəki xalqımızın keçmişini, tarixini əks etdirən qədim abidələrimiz məhv edildi. Bir sözlə, biz bu müharibədə milli sərvətlərimizi-tarixi abidələrimizi də itirdik. Bunlardan qədim Azıx mağarası, XIII əsr Xəzinədağ məbədini, ümumiyyətlə 500-dək tarixi-memarlıq, 100-dən artıq arxeoloji abidə, fondlarında on minlərlə əşyanın toplandığı 22 muzey, görkəmli rəssamlarımızdan Səttar Bəhlulzadə, Mikayıl Abdullayev, Maral Rəhmanzadə, Toğrul Nərimanbəyov və başqalarının əsərləri nümayiş etdirilən 4 rəsm qalereyası, 85 musiqi və incəsənət məktəbi, 20 mədəniyyət sarayı və başqalarını itirmişik. Bütün bu mədəniyyət abidələrimiz erməni faşistləri tərəfindən talan oldu. Erməni faşistləri bu torpaqları zəbt etməklə bərabər həmin ərazilərdəki mədəni sərvətlərimizi, tarixi abidələrimizi məhv etmiş və özününküləşmə siyasəti həyata keçirmişdilər. Tarix-memarlıq qoruğu elan edilmiş Şuşa şəhərindəki məscidlər dağıdılmış və yaxud Azərbaycan milli mədəniyyətinə mənsubluğu silinmişdir. Bundan başqa Şuşanın tarix muzeyi, Molla Pənah Vaqifin türbəsi, Ağdamda Pənah Xanın imarəti, Laçında Həmzə Sultan və Sultan Əhməd sarayları, qədim qəbirlər, kurqanlar tamamilə dağıdılmış, Alban məbədləri erməniləşdirilmişdir. Ağdam, Füzuli ərazilərindəki XVII-XVIII əsr memarlıq abidələri - karvansaralar xarabalığa çevrilmişdir. Qədim Azıx və Tağlar mağaraları, Üzəlliktəpə, Aluen, Qaraköşək abidələri hərbi məqsədlər üçün istifadəyə verilmişdir. Bundan başqa erməni faşistləri Kəlbəcər və Laçın tarix diyarşünaslıq muzeylərinin fondlarını mənimsəmişlər. Onu da qeyd etmək lazımdır ki, hələ təkcə Kəlbəcər muzeyindən 30 min əşiya aparılmışdır. Bütün bunlar onu göstərir ki, ermənilər bu qədər tarixi abidələrimizi - milli sərvətlərimizi talan etməklə bərabər mənəviyyatımıza böyük zərbə vurmuşdular. Artıq 44 günlük müharibədə Zəfər qələbimizdən sonra doğma torpaqlarmıza onun mədəni nümunələrinə sahib çıxdıq, viran olunmuş abidələrimizi dünya ictimaiətinə nümayiş etdirdik. Dədəbaba torpağından uzun ayrılıqdan sonra geriyə köç karvanı başlayıb, kəndlər abadlaşır, müasirləşir və tarixi abidələrimiz bərpa olunur.



Qeyd edək ki, Azərbaycan mədəniyyətinin, incəsənətinin çiçəklənməsi və inkişaf etməsi dünya miqyasında tanınması, tarix və mədəniyyət abidələrimizin göz bəbəyi kimi mühafizəsi sahəsində ümummilli liderimiz Heydər Əliyevin böyük əməyi olmuşdur. 1970-illərdə RLS-ə elektrik xəttlərinin çəkilməsi zamanı qədim Qəbələ qalası ətrafında qanunsuz elektrik dirəklərinin basdırılması "Tarixi abidələrin mühafizəsi" qanunda ciddi şəkildə pozuntular yaradırdı. Heydər Əliyev 2500 illik tarixi olan qədim Qəbələ qalasını elə həmin illərdə məhv olmaq təhlükəsindən qurtardı. Tarixi baxımdan qanuna zidd olan bu planın gerçəkləşməsinə yol vermədi.

Qəbələ rayonunu da tarixi abidələr beşiyi adlandırsaq səhv etmərik. Burada yüzə yaxın tarix və mədəniyyət abidəsi vardır. Buna misal olaraq qədim Qəbələ şəhərinin ərazisində "Qala divarları", "Kilsədağ məbədi", Vəndam kəndində "Hacıqaraman körpüsü", "Mirzalı evi", "Karvansara", Həzrədə "Türbələr komplesini", Bumda "Cümə məscidi" (1887), "Govur qalası" (VII-IX-əsr), "Karvansara" (XIX-əsrin ortaları), Nic kəndində "Yaloylutəpə", "Hacı Qərib məscidi", "Bolubəyin evi", Qəbələnin mərkəzində keçmiş Hamam binasının qalıqları (IX-XI-əsr), "Səkkizgüşəli məscid" və indiki Cümə məscidini göstərmək olar.

Bu gün əlimizdə olan istifadə etdiyimiz tarix və mədəniyyət abidələrimizi göz bəbəyi kimi qoruyaq. Belə çətin bir dövrdə milli sərvətlərimizə qayğı, mühafizə gərəkdir.

**İlhamə SEYİDOVA,**
**"Qəbələ"nin ştatdankənar müxbiri.**

# Tullantı sularının təmizlənməsi sahəsində Qəbələdə mühüm yeniliyə imza atılıb

Azərbaycanda tullantı sularının təmizlənməsi sahəsində ilk dəfə olaraq Qəbələ Qida Şəhərciyinin ərazisində yerləşən Qəbələ Konserv Zavodu tullantı sularının təmizləmə qurğusunun modernizasiyası zamanı Hərəkətli Yataq Bio-Reaktor (MBBR) Texnologiyasını uğurla tətbiq edib. Bu innovativ həll mövcud təmizləmə sistemlərinin gücünü artıraraq daha səmərəli, ekoloji təmiz və aşağı istismar xərcləri ilə çalışan, az enerji sərf edən, şirkətin dayanıqlılıq hədəflərinə uyğun sistem qurmağa imkan yaradır. Qəbələ Konserv Zavodunun tullantı sularının təmizlənməsi prosesinin modernizasiyası nəticəsində zavodun mövcud sutəmizləmə gücü günlük 600 $m^2$-dən 2400 $m^2$-ə yüksəldilib. Bununla da "Pepsi", "Natura", "Jalə", "Zolotoy sad", "I'm tea", "Mia", "Chipsim" kimi markalar altında satılan müxtəlif qida məhsullarının istehsal edildiyi Qəbələ Qida Şəhərciyində həm istehsalın dayanıqlılığı, həm də təbiətin qorunması istiqamətində önəmli addım atılıb. "Novex Group MMC"nin tərkibində fəaliyyət göstərən Qəbələ Konserv Zavodu müasir texnologiyalara əsaslanan istehsal prosesi və yüksəkkeyfiyyətli məhsulları ilə seçilir. Zavodda istehsal olunan meyvə şirələri, nektarlar, meyvə konsentratları, qazlı və qazsız sərinləşdirici içkilər həm yerli, həm də beynəlxalq bazarlarda geniş tələbat qazanaraq, Azərbaycan qida sənayesində mühüm yer tutur.



**"Qəbələ"**

# "Zəhmətkeşlərə" zəhmətkeş qayğı olarsa

**(Əvvəli 6-cı səhifədə).**

məhsul əldə edilməsi üçün lazımi qaydalara düzgün riayət etməli, təcrübi biliklərlə bahəm nəzəri bilikləri də öyrənməyə çalışmalıdır.

***- Arıçılıqla məşğul olduğunuz müddətdə qazandığınız uğurlar haqda oxucularımıza məlumat verə bilərsinizmi?***

- Hələ gənc yaşlarından arıçılığa böyük marağım olmuşdur. Oxuduğum sənət üzrə dövlət işlərində çalışsam da, şənbə və bazar günləri arıçılıqla məşğul olardım. Əvvəllər köhnə üsullarla bal əldə olunurdu. Ancaq müasir dövrdə arıçılığa maraq və diqqət artırılmışdır. Buna görə də nominasiyalarda yeni texnologiyaları bilmək lazımdır. Buna görə də arıçılıq üzrə elm adamlarının yazdığı kitabları mütaliə edir və nəzəri biliklərə yiyələnməyə çalışıram. Artıq 15 ilə yaxındır ki, Azərbaycanda Beynəlxalq Arıçılıq konfransları keçirilir. Həmçinin 5 ildən çoxdur ki, bal yarışmaları keçirilir. Bu konfrans və yarışmalarda iştirak edirəm. Bu hər bir arı təsərrüfatçısı kimi mənə də peşə sirlərini öyrənməkdə müsbət təsir göstərir. 2010-cu ildən bu vaxtadək Türkiyədə, Rusiyada, Gürcüstanda keçirilən beynəlxalq konfranslarda iştirak etmişəm. 2020-ci ildə keçirilən 6-cı Azərbaycan Beynəlxalq Arıçılıq konfransında təşkil edilmiş bal yarışmasında "İştirakçıların simpatiyası" kateqoriyasında birinci yeri tutmuşam və Türk balları nominasiyası üzrə birinciliyə görə Sertifikat almış, Qızıl medalla təltif olunmuşam. 2020-ci ilin yanvar ayında İsmayıllı rayonunun İvanovka qəsəbəsində keçirilən 7-ci Beynəlxalq Arıçılıq Konfransında yenidən birinci yeri tutaraq peşəkar arıçı olduğumu sübut etdim. 2022-ci ildə keçirilən yarışmada da Qızıl medala layiq görülmüşəm. 2023-2024-cü illərdə keçirilən bal yarışmalarında isə gümüş medal qazanaraq 2-ci yeri tutmuşam.



2025-ci il martın 1-də Moskvada keçirilən "Arı və insan" Beynəlxalq forumda bal yarışması keçirilirdi. Mən də bu yarışmaya onlayn qoşuldum və Bakı şəhərindən təyyarə ilə bal məhsulumu yarışmaya göndərdim. Bu yarışmada məhsulum keyfiyyətinə görə Qızıl medala layiq görüldü və 1-ci yeri qazandım. Hazırda Qəbələ rayon peşə məktəbində arıçılıqdan dərs deyir və peşəmin sirlərini tələbələrimə öyrədirəm.

***- Bu sənətə sevginiz nədən bəhrələnir?***

- İnsanlara sağlam həyat arzularımdan, təbiətə, təbiiliyə sevgimdən. Axı bal və bal məhsulları təbii sağlamlıq məhsullarıdır.

***- İlqar müəllim, oxucularımıza tövsiyəniz?***

- Həyatda hər şey öz təbiiliyi ilə daha gözəl, qiymətli, əhəmiyyətlidir. Yaşam tərzində hər kəsə təbiiliyə daha üstünlük verməsini arzulayır, tövsiyə edirəm.

***- Müsahibə üçün çox sağ olun, təşəkkür edirəm!***

**Müsahibəni apardı:**
**Bibixanim İSAYEVA.**

# Tələbəliyə stimul

Bildiyimiz kimi, hər il Qəbələ məktəbliləri buraxılış və ali məktəblərə qəbul imtahanlarında öz bilik və bacarıqları ilə fərqlənirlər. Artıq orta məktəblərin XI siniflərində buraxılış imtahanları başa çatmışdır. 2025-ci ilin orta məktəb buraxılış imtahanlarını müvəffəqiyyətlə verən şagirdlərdən biri də Rəsulov Ömər Eltun oğludur. O, rayonumuzun Qafur Şərifov adına Uludaş kənd orta məktəbində təhsil alır. Məktəbin nümunəvi və bilikli məzunlarından biri olan Qafur imtahanlardan 300 bal toplayaraq rayon birincisi olmuşdur. Bu isə ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamaq üçün Qafur Rəsulova ən gözəl stimuldur. İnanırıq ki, Qafur ölkəmizin ən gözəl və tanınmış təhsil ocağına qəbul olaraq tələbə adını qazanacaqdır.



**"Qəbələ"**